***N.DADAŞ***

# *ANA, QURBAN OLUM, ANA, AĞLAMA!*

***Dənizdə həlak olanların xatirəsinə!***

**Elə bil qar yağıb qara saçına**
**Ana, qurban olum, ana, ağlama!**
**Həsrətimi çəkə-çəkə dünyada**
**Ana, qurban olum, ana, ağlama!**

***

**Yığışıb başına bu gün el-oba,**
**Hamı qəm içində yas otağında.**
**Özüm gələmmədim, gəldim tabutda**
**Ana, qurban olum, ana, ağlama!**

***

**Canından ayrıldım, canından sənin**
**Hayladım, sızladım - çatmadı səsim.**
**Səninçin donammaz donmuş bədənim,**
**Ana, qurban olum, ana, ağlama!**

***

**Oğluma, qızıma dayaq siz olduz**
**Qoymayın onları qalsın ümidsüz.**
**Yetim çağırsalar onları mənsiz,**
**Ana, qurban olum, ana, ağlama!**

***

**Bayramı bayram bil, həm də ağlama,**
**Bayramda başına qara bağlama.**
**Adımı siz qoyun körpə balama,**
**Ana, qurban olum, ana, ağlama!**

***

**Sağalan dərd deyil kimsə sağalsın,**
**Ümidlər tükənib kimsə sağ qalsın.**
**Heç kəsin gözləri yolda qalmasın,**
**Ana, qurban olum, ana, ağlama!**

***

**Bu dərdi çəkmək deyildir asan,**
**Gəl, hərdən sahilə, əgər darıxsan.**
**Ruhum qonaq gəlib, gör nə haldasan?**
**Ana, qurban olum, ana, ağlama!**